# AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATINDA MƏNƏVİ-ƏXLAQİ MÖVZULAR

**İ.F.RƏHMANOVA**
***Bakı Dövlət Universiteti***

Bu ad altında birləşən mövzuların əhatə dairəsi ilə işlənmə tarixi çox genişdir. Folklor ədəbiyyatımızda demək olar ki, bütün mövzuların əsasında məhz əxlaqi münasibət və nəticələr dayandığı kimi, yazılı ədəbiyyatımızın hələ Nizami dövründən üzü bəri məhz ilk növbədə bu əsasda kökləndiyini müşahidə etmək mümkündür. «Sirlər xəzinəsi»nin kərpickəsən qocası, öyüdçü zahidi, Sultan Səncəri doğru yola çəkən qarısı və bu kimi digər qəhrəmanları ustadının sözüylə canlanaraq əsrlərlə təkcə həyatda artıq hansısa bir yolu alıb gedən böyüklərə deyil, hələ yol ayrıcında dayanıb addım atmağa tərəddüd edən uşaqların, yeniyetmələrin də işıq, nur saçan çırağına çevrilmişdir. Bu mövzulu əsərlər ədəbiyyatımızda zamanın keşməkeşləri içərisindən özünün orijinallığını, milli koloritini qoruyub saxlamağa daha çox müvəffəq olmuşlara aiddir. Xüsusilə poetik əsərlərimiz sərbəstliyə meylli, eyni zamanda daha uğurlu variasiyaları ənənəvilik prinsipinin bu sahədəki nisbi üstünlüyü ilə izah oluna bilər. Əslində istər təbiətlə bağlı, istər vətənpərvərlik, torpağa bağlılıqla, istər kənd, istər şəhər mövzuları ilə bağlı əsərlər olsun, onların mahiyyəti, ilk növbədə, mənəvi-əxlaqi tərbiyə aşılamaq məqsədinə tabedir. Azərbaycan uşaq ədəbiyyatında bu cür tərbiyə üsulunun müxtəlif ədəbi priyomlar, üslub rəngarəngliyinin maraqlı və zəngin qalereyasını seyr etmək olar. Hər bir ədib bu sahədə öz baxımıyla yanaşı, yeni orijinal ifadə vasitələri, deyim tərzi əlavə edir. Mənəvi-əxlaqi mövzuların mayasını ümumbəşərilik, sülhpərəstlik, dözümlülük, doğruluq kimi humanist ideyaların təşkil etdiyi şübhəsizdir. Ancaq bu mövzu bəlkə də digərlərinin dayandığı yüksək bir səviyyədə milli mentalitetə əsaslanır və ondan qidalanır. 60-cı illərin əvvəllərindən sovet quruluşunun süqutuna qədər ədəbiyyatda bu meyl açıq-açığına təbliğ olunsaydı, senzura ona ifrat millətçilik, şovinizm damğası vuracaqdı. Çünki, milli soy, xüsusilə uzun illər öz kökünü dandırıb, mankurtluğa sarı qovulan Azərbaycan xalqının milli soyu məsələsinin ədəbiyyatda mövqe alması sovet rejiminin ən az arzuladığı məsələ idi, uşaq ədəbiyyatında isə ümumiyyətlə görmək istəmədiyi cəhət idi. Lakin əzmkarlıq və qan yaddaşı həmişə qələbə çaldığı üçün, bu yerdə də maneələri dəf edə bilmədi. Sənətkar dili öz sözünü çatdırmaq, öyüdünü vermək üçün yollar axtarıb tapa bilir və nəticədə maraqlı sənət nümunələri meydana gəlirdi.

Bir sıra sənət nümunələrinin bol olduğu irsin yaradıcılarından biri uşaq şeirinin korifeylərindən hesab olunan M.Rzaquluzadədir. Ədəbiyyatımızın demək olar ki, bütün qadağalı, keşməkeşli dövrlərinin ağırlığını öz çiyinlərində daşımış qocaman şair millətinin balasına lazımi

nəsihətini çatdırmaq, onu milli ruhda yetişdirmək üçün müvafiq uğurlu vasitələrdən istifadə edə bilirdi.

Hər şeydən əvvəl M.Rzaquluzadə qəhrəmanlarını əsl türk adlarıyla (Tokay, Aytac, Tuncər, Aytəkin, Aybok, Alı və s.) adlandırmaqla, müasirlərinin qulaqlarını, yaddaşlarını bu səslənmələrə öyrədirdi ki, bu da hələ 50-ci illərin abı-havasına, siyasətə, qadağalara müqabil mənşəyə doğru atılmış cəsarətli addım idi. Bu əsərlərin bir önəmli cəhəti də çox vaxt (bayram şeirləri istisna olmaqla) müəyyən ibrətamiz bir süjetlə bağlı olmaqla ənənəliyə sadiqlik xüsusiyyətidir. Belə şeirlərdə əsas məqsəd gənc oxucunu zəhmətə, təvazökarlığa səsləməkdən ibarətdir. «Yuva davası», «Ağ göyərçin», «Tozsoran», «Düymə», «Evimizdə maşınlar» və s. şeirlər bu qəbildəndir. Şair çox inandırır ki, zəhmətin böyüyü, kiçiyi, yaraşanı, yaraşmayanı olmur, zəhmət hər məqamda şərəflidir, insana üzağlığı gətirir. «Tozsoran», «Evimizdə maşınlar», «Düymə» şeirlərinin oğlan qəhrəmanları ev işləri görməklə, hətta yeri gəldikdə özünün qırılmış düyməsini tikməklə anasına kömək etdiklərinə və bununla da şərəfli bir iş gördüklərinə tam əmindirlər. M.Rzaquluzadənin uşaq şeirlərinin incə duyumlu psixoloji ovqatı özündən sonrakı nəsillərin yardıcılığında böyük rol oynamışdır, bu xüsusiyyətlərin ən önəmlisi və haqlı olaraq sonrakı nəsil şairlərinə daha çox təsir göstərəni hər bir əlverişli məqamda hər fikir dönəmində milli, folklor və klassik şeir üslubuna, fəlsəfi-didaktik ifadə tərzinə istinad prinsipidir. Senzuranın qadağaları altında M.Rzaquluzadənin incə müdrikliklə nağıl, rəvayət kimi qələmə aldığı bir çox mövzular bəzi mətləblərin simvolik dillə tərənnümünə yönəldilmişdir. Şairin «Torağay», «Dozanqurdu», «Aslan ürəyi», «Tərifnamə», «Rəssam və hökmdar», «Uzun və böyük», «Yuxu dərmanı», «Adam – alim», «Qoruqçu», «Uşaq və at», «Körpələr», «Düşüncə», «Dirilik suyu» kimi ibrətamiz məzmunlu şeirləri həm də milli-psixoloji motivləri əks etdirməklə daim müasirdir, heç vaxt öz əhəmiyyətini itirmir. «Yuva davası» şeiri iyirmi beş-otuz il əvvəl yazılsa da, bu gün bizimlə torpaq iddialı qonşularımızın əhvali-ruhiyyəsini və xalqımızın təmkinli mübarizə əzmini heyrətamiz bir dəqiqliklə açıb göstərir.

Nankor sərçə qaranquşların səbrinə qarşı onların yuvasından çıxmayacağını bildirir və onların uçub getmələrini tələb edir. Cana doymuş qaranquşlar öz dostlarını köməyə çağırırlar və uçub gələn hər qaranquş yuvaya bir çöp qoyaraq onu hörür. Beləliklə, sərçə tərpənməyə imkan tapmamış yuvanın ağzını tamamilə hörərək onu içəridə qoyub uçub gedirlər. Bunu müşahidə edən bir qızcığaz yuvanın ağzını açaraq quşu qaranquşların ölüm hökmündən xilas edir, azadlığa çıxan sərçə tələsik uçub gedir və bir daha oralarda görünmür. Uşaqlar üçün yazılmış bu əsərin hələ neçə illər əvvəl belə yerinə düşən ibrətamiz məzmunu şairin yaradıcılığında bəlkə də təsadüfi deyildi, çünki qocaman şair artıq öz gənclik illərində qonşularımızın nankorluğunun şahidi olmuşdu, çox güman ki, hadisələrin gedişi onun mənəvi ehtiyac hissilə ibrətamiz bir nəsihət kimi alleqorik biçimdə yeni nəsilə müraciət etməsinə səbəb olmuşdu və nəticədə səmimi söz həmişə olduğu kimi, bu dəfə də ölməzliyini, uzaqgörənliyini nəsillərə sübut etmişdi.

M.Rzaquluzadənin «Adam – alim» adlı digər bir əsərində ataların «alim olmaq asandır, adam olmaq çətin» kəlamına etiraz edən bir alimin ibrətamiz taleyi maraqlı bədii ifadələrlə nəql olunur. Bu misalın qeyri-səhihliyini aləmə sübut etməyə çalışan alim öz ulağına ciddi-cəhdlə dərs

keçir, onu savad və dərin elmi biliklər sahibinə çevirir. Son nəticədə onun üzünə ağ olan ulaq ustadına təpik vurub yaralayır.

Şairin əksər şeirlərinin əsas motivini təşkil edən öyüdçülük, nəsihətamizlik quru sözçülüklə deyil, maraqlı, canlı, yadda qalan və çox zaman yumoristik-zarafatyana əhvali-ruhiyyə ilə oxucuya çatdırılır. Oxucu ona inanır, yerli-yerində tapılmış hadisələri maraqla izləyir və yekunda gəlinən nəticə müəllifin fikriylə, məqsədiylə tam üst-üstə düşür. Bu əsərlərdə Nizami, S.Ə.Şirvani, Q.Zakirdən gələn ənənəvi didaktikayla («Aslanın ürəyi», «Tərifnamə», «Rəssam və hökmdar») yanaşı son dərəcə müasir ruh, dinamika, xüsusilə də olanlara nikbin münasibət öz dolğun ifadəsini tapmışdır. Məsələn, bədii ədəbiyyatda aqressiyaya, haqsızlığa qarşı etirazın müxtəlif variantlarıyla rastlaşırıq və çox vaxt bu münasibətlə yazılmış əsərlərdə yüksək lirik-romantik pafos aparıcı rol oynayır. M.Rzaquluzadə qələmində bu etiraz heyrət doğuracaq qədər səmimi bir müdrikliklə birləşərək, əsl sənət şedevrinə çevrilir.

Bu şeir uşaq şeirləri içərisində verilsə də, daha çox uşaq dünyagörüşündən daha yüksəkdə dayanan fəlsəfi ifadə manerasıyla körpə dünyası haqda himn kimi bütün insanlığa həyəcan təbili çalır. Əslində M.Rzaquluzadənin uşaq şeirlərində «böyüklər» və «kiçiklər» adlı yaş dərəcəsi yoxdur. Bu poeziya uşaq dünyasını öz təmiz, ülvi dünyagörüşüylə həyata doğru, ömrün keşməkeşlərinə doğru irəli addımlamağa, əziyyətlərin gözünə əzmlə, inamla baxmağa, saflığı, xeyirxahlığı itirməməyə səsləyir.

M.Rzaquluzadə poeziyasının hamı üçün anlaşıqlı sadə, xalq ruhlu dili, öz elinin, öz dilinin heysiyyəti keşiyində dayanan şair üçün əsl etibarlı silahdır. Onun şeirləri kiçik yaşlı uşaqlar üçün deyil, məktəbyaşlı uşaqlar üçün nəzərdə tutulsa da, müdrik fəlsəfi mənaya malik olsalar da, ölçüyə gəlməz axıcılığı, oynaq lirik ifadə vasitələri ilə çox tez yaddaşlara həkk olunur və gənc oxucunun kövrək fantaziyasına yeni üfüqlər bəxş edir.

Mənəvi dəyərlərin təbliğində istifadə olunan digər bir metod 50-70-ci illərdə daha çox istifadə olunan təmsilvari-alleqorik ifadə üsuludur. M.Seyidzadənin «Ədəbaz meymun», «Canavar və tülkü», «Əqrəb və çanaqlıbağa» və s. şeirlərində lovğalığın, xudpəsəndliyin acı taleyi heyvanların timsalında çox oynaq və orijinal bir şəkildə qələmə alınır. Rəsul Rzanın «Şəkil və Çəkil», «Təranənin oyuncaqları» əsərləri də bu qəbildəndir. R.Rzanın «Şəkil və Çəkil» poeması uşaqların yaddaşına öz əlvan və kövrək mənzərələri ilə, məntiqi sonluğu ilə həkk olunur. Anasız iki küçüyün bir-birinə münasibəti və fərdi canlı xarakteri kiçik oxucunu daimi maraq içərisində saxlayır. Küçüklərdən biri xasiyyətinin ağırlığına, hamıya acıqlı münasibətinə görə Çəkil adlandırılıb. Səbirsizlik, tərslik və lovğalıq onun həyatına acı sınaqlar gətirir. Əgər özünün əksi olan həlim, mehriban, ağıllı bacısı Şəkil olmasaydı, yəqin ki, asan başa gətirdiyi buz evinin yaz günəşi altında əriməsindən sonra o, evsiz və sərgərdan qalacaqdı. Şəkil isə qardaşının onu acılamasına, sözünü eşitməməsinə baxmayaraq, onun qayğısını çəkir, evində ən yaxşı yeri ona verir. Alleqorik bir dillə ailə münasibətlərinin düzgün və qarşılıqlı hörmət, məsləhət üzərində qurulmasını təbliğ edən bu əsər maraqlı və həyəcanlı səhnələri ilə kiçik oxucuya böyük təsir göstərir. Sonradan ədəbiyyatımızda təmsilçi kimi tanıdığımız M.Əliyevin, H.Ziyanın da əsərləri məhz bu metoda xidmət edir. H.Ziyanın uşaqlar üçün yazdığı kiçikhəcmli şeirləri çox zaman birinci şəxsin dilindən verilir. «Günəş», «Leylək

yuvası», «Ulduzlar», «Dondurma», «Təmizkaram mən», «Afərin», «Dostluğu sevənəm mən» və s. şeirlərində olduğu kimi uşaq söyləmiylə ifadə olunmuş bu əsərlərdə hansısa hadisə və ya münasibət uşağın öz anlamında təsvir edilir ki, bu da əsərə xüsusi cazibədarlıq gətirir.

Eləcə də müəllifin təmsil ustalığından irəli gələn yumoristik ifadə tərzi, yığcamlıq bu şeirləri («Cırcıramanın sözünə aldanan milçək», «Ayı və gicitkən», «Dəvə və nəvə», «Öz sözündən qorxan timsah» və s.) oxunaqlı edən və sevdirən əsas məziyyətlərdir.

T.Elçinin məktəbəqədər yaşlı uşaqlar üçün yazdığı şeirlərdə alleqoriya öyrətməyə, dil qabiliyyətini itiləməyə yönəldilir.

Şairin şeirlərində təmsilvariliyə çox yol verilmir. Onun auditoriyası daha çox kiçikyaşlı uşaqlardan ibarətdir. Öz axıcılığı, ritmikliyi ilə bir çox musiqilərə mahnı mətni kimi («Tənbəl», «Din-dan», «Bip-bipin nəğməsi», «Bizim həyət», «Mən kiməm» və s.) uşaqların dilində səslənir. T.Elçin şeirlərinin qəhrəmanı olan uşağın fərdi xarakterini açmağa çalışır, son nəticəni uşağın düzgün hərəkətiylə yekunlaşdırır. Bu poeziyada uşaq aləminə olan məhəbbət ümumbəşərilikdə, milliliyin qarşılığıyla yoğrulur və nəticədə yadda qalan, bu gün belə dilimizin əzbəri olan ölməz poetik nümunələr meydana gəlir.

T.Elçinin «Sözlər-şeirlər» silsiləsi də öz orijinallığı ilə seçilir. Dilimizin omonimləri əsasında yaradılmış bu şeirlərdə əsas məqsəd uşaqlara eyniadlı müxtəlif məfhumlar haqda məlumat verməklə yanaşı, uşaq nitqini və təsəvvürünü inkişaf etdirməkdir. Digər tərəfdən belə şeirlər yanıltmac кimi də maraqlıdır, məktəbəqədər yaşlı uşaqların təlimi prosesində ən yaxşı vasitələr hesab oluna bilər: «Əldən düşdü», «Ləçək», «Düymələdi», «Alma», «Göz-gözlük», «Əl-əlcəк», «Qulaq-Qulaqlıq» və s. şeirlər bu qəbildəndir.

T.Elçinin «Bahar-adlar-uşaqlar» poeması «Körpələr», «Pişik və sərçə» nağıl-poemaları uşaqların öz dünyasına səyahətidir. Bu əsərlərdə uşaqların öz təsəvvürlərinə, fantaziyalarına kənar müdaxilə, kənar bir nəzarət yoxdur, bunlarda hər şey onların həyat və düşüncə tərzlərinə doğma və yaxındır. Bu tipli əsərlərin uşaq oyunları kimi səhnələşdirilməsi də uğurlu olur.

M.Dilbazinin mənəvi-əxlaqi mövzuda yazdığı əsərləri uşaq ədəbiyyatında özünəməxsusluğu, əlahiddə bədii metodu ilə seçilir. O, bütün mövzularda, bütün əsərlərində, hər şeydən əvvəl, balalarına zərif nəzakət və hörmətlə, böyük məhəbbətlə yanaşan anadır. Müəllif diliylə söylənən bu şeirlərin əksəriyyətində müdrik və səbrli ana obrazı öz boyunu göstərir. Bu ana obrazı uşaqlara, hətta körpələrə də hər hansı məfhum haqqında məlumat verirsə də, ona bu haqda sərbəst düşünməyə, sərbəst nəticəyə gəlməyə də təminat yaradır. Müəllif çox incə şəkildə bildirdiyi münasibətilə ümumi fikri istiqamətləndirmiş olur: «Tapın, hansı fəsildir» şeirində şair hər fəslin özünəməxsus əlamətini söyləyir. Bəndin sonunda uşaqlardan bunun hansı fəsil olduğunu soruşur və nəhayət, ən sonuncu bənddə uşaqda oxuduğuna, eşitdiyinə diqqət hissi daha da möhkəmlənir.

M.Dilbazi uşaq şeirlərində də öz poeziyasının metaforik-lirik təsvir, tərənnüm prinsiplərinə («Gəl bahar, yer üşüdü, Gün göyün gülüşüdü») söykənir. Bu şeirlər ədəbiyyatımızın klassik ənənələri əsasında yaranır. Mayasında da, məzmununda da kökə sadıqlik qırmızı bir xətt kimi keçib gedir.

Şair hansı mövzuda yazırsa yazsın əsərin ideyasının mayası torpağa, elə, doğma təbiətə, zəhmətə hörmət və məhəbbətdən yoğrulur, bu fikirlər hər dəfə dönə-dönə, hər dəfə yeni, orijinal deyimlə təкrar olunur. Onun poeziyası bu baxımdan həm ideya, həm mövzusu etibarı ilə monolitdir, tamdır. Bu monolitliyin özündə isə bitkinlik, kamillik vardır. Odur ki, M.Dilbazi poeziyası mövzu təsnifatına asanlıqla yatmır. Bununla belə, nisbi də olsa şairin uşaq şeirlərindən ibarət poetik irsini mövzusuna görə bir neçə qrupa ayırmaq olar: 1) mənəvi-əxlaqi şeirlər; 2) doğma yurdun təbiəti ilə bağlı şeirlər; 3) ana torpaq və zəhmət adamları haqda şeirlər. Birinci mövzuya daxil olan şeirləri də məna çalarlarına görə: a) tərbiyəvi-nəsihətamiz; b) əzizləmə, c) lirik-psixoloji şeirlər kimi qruplaşdırmaq olar.

«Balın anası kimdir?», «Ayaqlanan torpaqda ot bitməz», «İki qonşu, iki yoldaş», «Oğul çörəyi», «Göyərçin və nənə», «Nənə və qul ağacı», «Ülkər», «İndi Ülkər neyləsin?», «Bu qız mənə tanışdır», «Sözə baxmayanda», «Nə ad verək?» və s. kimi tərbiyəvi-nəsihətamiz şeirlərində M.Dilbazi öz qəhrəmanına quru sözlərlə göstəriş verib, yol göstərməklə kifayətlənmir, ona işin düzgün istiqamətini maraqlı misallarla başa salır, səhv hərəkətini doğru, səmimi sözlərlə məzəmmət edir, yəni bu şeirlərdə uşağın heysiyyatına, qüruruna toxuna biləcək kiçicik bir ironiyaya da rast gəlmək olmaz. Elə bu bölgü daxilində «Şirin qızım, bal qızım», «Deyin bu necə kişidir?», «Nənəmin nəvələri», «İki nəvə, bir nənə», «Lay-lay», «Körpə yatır», «Cəvahir», «Lalə», «Sözün bala batıbdır», «Tıp-tıp yerişlərin var» və s. kimi uşaq əzizləmələri lap körpə uşaqlar üçün nəzərdə tutulmuşdur. Belə xarakterli şeirlərdə nəsihətçiliyə nisbətən az yer verilir. Əsərin qəhrəmanı olan körpənin əlamətləri, hərəkətləri, əməlləri təsvir olunur. Bir sözlə, körpənin müəyyən situasiyada portreti yaradılır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ən kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş belə şeirlər uşaq ədəbiyyatıyla bağlı əksər ədiblərimizin yaradıcılığında bu və ya digər dərəcədə özünə yer almışdır. Yaradıcılıq metodlarının, üslubların müxtəlifliyi bu tipli əsərlərin xarakter rəngarəngliyinə də imkan yaratmışdır. M.Dilbazi, X.Əlibəyli, N.Rəfibəyli, Z.Ağayevanın çox şeirləri əzizləmə, oxşama, tərifetmə kimi folklor ruhlu nümunələrini xatırladır. Bəzən də əzizləmə dinamikaya meylli şəkildə qurulur və süjet daxilində körpənin portretinin əsas cizgiləri əlvan bir şəkildə təqdim edilir. Maraqlıdır ki, uşaq şeirlərinin məhz bu qismi Azərbaycan poeziyasının spesifıkliyi sırasında ilk yerlərdə durur. Dünyanın analoji poeziya nümunələrində məhz bu tərzdə əzizləmə şeirlərinə demək olar ki, rast gəlinmir.

Göründüyü kimi, əzizləmələr (əlbəttə bu ad şərtidir) dil və üslub baxımından aydın, yığcam, mənasına görə rəngarəngdir, kiçikyaşlı uşaqların həm maraq, həm də qavrama, yaddasaxlama imkanlarına uyğundur. Belə şeirlərin tarix, ənənəvilik baxımından həm keçmişi, həm də gələcəyi ölçüsüzdür.

M.Dilbazinin mənəvi-əxlaqi mövzulu bir qisim şeiri də vardır ki, nisbətən yeniyetmə yaşlı uşaqların psixologiyasına uyğun olub, uşaqların başa düşəcəyi səviyyədə lirik-assosiativ səciyyəvi olub, fəlsəfi şeirlər silsiləsinə daxil edilə bilər. M.Dilbazinin belə poetik nümunələri öz orijinal deyim, ifadə tərzi, hissi-emosional tutumu, fəlsəfi anlamıyla digər uşaq şeirlərindən yüksəkdə dayanır və elə bil uşaq poeziyasından yetkin-

liyə bir körpü («Durnalar», «Yatın, mənim gözəllərim», «Nənələr qocaldılar», «Oğlum dənizdədir», «Beşiyimin başında», «Atam, anam var olsun». «Evin qocası vardı», «Göydə gül yarpağı uçun») salır.

Nəinki Azərbaycan uşaq poeziyasında, eləcə də bütövlükdə ədəbiyyatımızda belə sadə, boyasız dillə, tənhalıq, qəriblik mövzusu kimi ağır, fəlsəfi problemin ifadəsi, məhz M.Dilbazi yaradıcılığının möcüzəsiylə başa gələ bilərdi.

## QEYDLƏR


1. Mirvari Dilbazi. Çiçəкdən çiçəyə. Bакı: 1991.
2. Teymur Elçin. Bahar açılır, uşaqlar. Bакı: 1996.
3. Qara Namazov. Azərbaycan uşaq ədəbiyyatı. Bакı: 1974.
4. Miкayıl Rzaquluzadə. İlin yazı, elin sazı. Bакı: 1992.
5. İradə Rəhmanova. M.Rzaquluzadənin yaradıcılığı. Bакı: 2001.


## ДУХОВНО-НРАВСТВЕННЫЕ ТЕМЫ В АЗЕРБАЙДЖАНСКОЙ ДЕТСКОЙ ЛИТЕРАТУРЕ


**И.Ф.РАХМАНОВА**


### РЕЗЮМЕ


В литературоведении детская литература характеризуется как научно-популярные, научно-художественные произведения, написанные специально для детей.

Круг тем, объединяемых под данным названием, и история их обработки весьма широки.

В действительности сущность произведений, связанных как с природой, с привязанностью к земле, с патриотизмом, так и с темой деревни, города служит в первую очередь одной цели - духовно-нравственному воспитанию. В произведениях на такие темы основная цель заключается в том, чтобы призвать юных читателей к труду, скромности.

Такие назидательные произведения, как «Драка из-за гнезда», «Белый голубь», «Пуговица», «Жук-бомбардир», «Львиное сердце», «Художник и повелитель», «Живая вода», отражая национально-психологические мотивы, сохраняют свою современность и не утрачивают свою значимость.


## SPIRITUAL-MORAL THEMES IN THE AZERBAIJANIAN CHILDREN'S LITERATURE


**I.F.RAHMANOVA**


### SUMMARY


In the literati studies children's literature is characterized as the scientific-popular, scientific-artistic works written specially for children.

The sphere of themes that are united under this name and history of their editing are very extensive.

Actually the essence of the works connected both with the nature, attachment to the earth, patriotism and with the village, city subjects, in the first place serves to the same purpose-spiritual-moral bringing up.

In such works the main purpose is to call young readers to labor, modesty. Such didactic works as «Fight for the nest», «The white pigeon», «The button», «The beetle-goal-scorer», «The lion heart», «The painter and the ruler», «The lively water» are reflected the national-psychological themes, and they are always modern and never lose their significance.